*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 13-17*
https://doi.org/10.62837/2024.5.13

**MƏMMƏDOVA SVETLANA NƏSİB QIZI**
**Azərbaycan Dövlət Pedoqoji Universitetinin**
**Xarici Dillər Mərkəzinin dosenti,**
**filologiya üzrə fəlsəfə doktoru**
**Üzeyir Hacıbəyli küç.68**
**svetlanamammedova72@gmail.com**
**055 696 18 40**

# QƏRBİ AZƏRBAYCAN TORPAĞININ YETİRMƏLƏRİ

**Açar sözlər:** poeziya,dilçilik,publisistika,ədəbiyyatşünas, dilçilik tədqiqatları

**Xülasə**

Qərbi Azərbaycan Azərbaycan xalqının əzəli və qədim yurd yerimiz olub və qədim tarixə malikdir. Bir çox ictimai xadimlər ,elm , mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözünü deyən alimlər məhz bu torpağın yetirmələridir. Həsən Mirzəyevin Azərbaycan filologiya elminin inkişafında özünəməxsus yeri var. O, dilçiliyin müxtəlif problemlərinə dair bir sıra möhtəşəm tədqiqatları ilə tanınırdı. Alimin xüsusilə Qərbi Azərbaycanın yer adları ilə bağlı araşdırmaları və tədqiqatları milli tarixin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Görkəmli dilçi , alim,professor Mahirə Hüseynova Həsən Mirzə yetirməsidir.Onun ədəbiyyata verdiyi töhvəsi isə əvəzolunmazdır. Həsən Mirzə bütün ömrü boyu Azərbaycan xalqının qüruruna və kədərinə yiyə duranlardan olub; həm elmi-pedqaoji, həm poetik, həm də ictimai-siyasi fəaliyyəti ilə. Milli ruhu, xalqımızın ən önəmli problemi kimi bötövləşmə məsələsini sətirlərinə daşıyaraq, misralarına hopduraraq qəm karvanını xoş sabahlar naminə ünvanına doğru çəkib. Həsən Mirzə arzuladı və dərdlərin bitəcəyi, həsrətin ovunacağı, vüsalın oyanacağı bir günə inandı və elə bu inamla da bizlərdən ayrıldı; yalnız cismani olaraq. Ancaq dərin elmi fəaliyyəti ilə, mənəvi dünyamızı zənginləşdirən bədii yaradıcılıq nümunələri ilə, dəyərli misraları ilə hər zaman bizimlədir. Təbii ki, yaradıcı insanlar ölmürlər, onlar əsərləri ilə insanlıq səmasında parlayıb bərq vuran ulduzlar kimi daim sönməz olur, yolumuzu işıqlandırmaqda davam edirlər. Həsən Mirzə də belə bir müqəddəs yolun əzəli-əbədi sakinlərindən biridir.

**MAMMADOVA, DAUGHTER OF SVETLANA NASIB**

## THE DESCENDANTS OF THE LAND OF WESTERN AZERBAIJAN

**Summary**

Western Azerbaijan was the ancestral and ancient homeland of the Azerbaijani people and has an ancient history. Many public figures, scientists who speak their word in the world of science, culture, literature and art are the children of this land. Hasan Mirzayev has a special place in the development of Azerbaijani

philological science. He was known for a number of outstanding studies on various problems of linguistics. Researches and researches of the scientist, especially regarding the place names of Western Azerbaijan, are of special importance from the point of view of the study of national history. The outstanding linguist, scientist, professor Mahira Huseynova is the son of Hasan Mirza. His contribution to literature is irreplaceable. Hasan Mirza was one of those who ate the pride and sorrow of the Azerbaijani people throughout his life; both with scientific-pedagogical, poetic and socio-political activity. The national spirit carried the issue of integration as the most important problem of our nation in its lines and absorbed it into its verses and pulled the caravan of grief towards its address for the sake of good tomorrows. Hasan Mirza wished and believed in a day when the troubles would end, the longing would be washed away, and the spirit would wake up, and he left us with this belief. only physically. However, he is always with us with his deep scientific activity, with his examples of artistic creativity that enriches our spiritual world, and with his valuable verses. Of course, creative people don't die, they are always inextinguishable like the stars shining in the sky of humanity with their works, they continue to light our way. Hasan Mirza is also one of the eternal residents of such a holy road.

**Key words:** poetry, linguistics, journalism, literature, linguistic studies.

**МАММАДОВА СВЕТЛАНА НАСИБ**

## ПОТОМКИ ЗЕМЕЛЬ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Западный Азербайджан был прародиной и древней родиной азербайджанского народа и имеет древнюю историю. Многие общественные деятели, ученые, говорящие свое слово в мире науки, культуры, литературы и искусства, являются детьми этой земли. Гасан Мирзаев занимает особое место в развитии азербайджанской филологической науки. Он был известен рядом выдающихся исследований по различным проблемам языкознания. Исследования и изыскания ученого, особенно относительно топонимов Западного Азербайджана, имеют особое значение с точки зрения изучения национальной истории. Выдающийся лингвист, учёный, профессор Махира Гусейнова – последовалница Гасана Мирзы, его вклад в литературу неоценим. Гасан Мирза был одним из тех, кто всю свою жизнь питал гордость и горе азербайджанского народа; как с научно-педагогической, поэтической, так и общественно-политической деятельностью. Национальный дух вынес в своих строках вопрос интеграции как важнейшую проблему нашего народа, впитал его в свои стихи и потянул караван горя в свой адрес ради хорошего завтра. Хасан Мирза желал и верил в тот день, когда беды закончатся, тоска смоется, а дух проснется, и он оставил нас с этой верой. только физически. Однако он всегда с нами своей глубокой научной деятельностью, своими примерами художественного творчества, обогащающего наш духовный мир, своими

ценными стихами. Конечно, творческие люди не умирают, они всегда неугасимы, как звезды, сияющие своими произведениями на небосклоне человечества, они продолжают освещать нам путь. Хасан Мирза тоже является одним из вечных жителей такой священной дороги.
**Ключевые слова:** поэзия, языкознание, журналистика, литература, лингвистика.

Qərbi Azərbaycan tariximizin bir parçasıdır: Ürək ağrıdan, qəlb göynədən parçası. Bu torpaqlarda Dədə Qorqud qopuz çalıb, söz qoşub, igidlərə ad verib, Koroğlu qarı düşmənə daş atıb, Aşıq Ələsgər dağlarımızı, buz bulaqlarımızı, güllü-çiçəkli torpağımızı vəsf edib, oxşayıb, tərənnüm edib.(1.səh 4).Qərbi Azərbaycan ərazisi maddi mədəniyyət nümunələrinin zənginliyi ilə hər zaman diqqəti özünə cəlb edib . Azərbaycanın tarixini özündə yaşadan bu tarixi abidələr indiki Ermənistan ərazisinin köklü sakinlərinin azərbaycanlılar olduğunu aydın şəkildə təsdiq edir. «Bunu həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları karvansaraylar, körpülər, qəbirüstü sənduqələr, at-qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar da təsdiq edir» [2, s.9] Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər - ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş etmişdir. Bunlardan biridə Həsən Mirzəyev olmuşdur.Həsən Mirzəyevin 200-dən çox elmi əsəri, o cümlədən 25 kitabı və 10-a yaxın dərs vəsaiti işıq üzü görüb. O, eyni zamanda, mütəmadi surətdə bədii yaradıcılıqla məşğul olurdu.

Həsən Mirzəyevin xarakterindən doğan təbiiliyi və səmimiliyi onun misralarında da özünü göstərmişdir. Onu yazmağa sövq etdirən həmişə qəlbində böyük yer tutan vətən dərdi idi. Qərbi Azərbaycanın bir parçası olan Dərələyəzdə dünyaya göz açan şair böyük ayrılığın nəticəsində qəlbində vətən ayrılığını, ulu əcdadlarımızın nişanəsi, nəfəsi, yadigarı kimi həmin o yerlərin əsl sahiblərindən uzaq düşdüyünü dərin hüzün dolu misralarla dilə gətirib. Misralarda kədər, qəm-qüssə , ayriliq nə qədər özünə yer almış olsa belə, şair əzəli torpaqlarımıza qayıdışımızın baş tutacağı günə inanır və ümidlə gözləyirdi "Bəlkə bu şad xəbər silə dərdimi" deməklə şair ər oğullarımızın ayağa qalxacağını və xoş bir xəbərin tezliklə gələcəyini səbirsizliklə gözləyirdi.Ancaq hər bir kədərin müqabilində, dərdin qarşılığında heç zaman inamını itirmir, kədər dənizindən boy verib ucalan misraları ilə gələcəyə ümidlə baxırdı. O öz dogma yurduna , o ocağa qayıdacağı günün xoş sorağını dilə gətirirdi. Şairin hər şeirində bu kimi nikbin notlar yer tuturdu. Şair qədim türk yurdu, oğuz diyarı kimi tanınan Dərələyəzi və onun timsalında digər həsrət qaldığımız dogma yerlərimizi təkcə pafos və patetika ilə tərənnüm etmir, onu qürurla öyməklə də kifayətlənmir ,həm də onu incə ruhundan qopan dərin bir sevgi ilə şerlərində tərənnüm edirdi:

*Kaş ki, o yerlərə bir də gələydik,*
*Nərgizin gözündən öpüb, üzəydik,*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 13-17*

*Nəticə toyunda yallı süzəydik,*
*İşlər olaydı düz Dərələyəzdə.*

Həsən Mirzə ömrünün sonunadək fikirlərinə və ideallarına sadiq qaldı. O, həmişə həyatda məğrur yaşadı, heç nəyə boyun əymədi. Misraları da, şeirləri də əyilməzlik tərənnüm edirdi , sətirləri öz libasını cəsarətdən biçdi, onlar da şairin özü kimi məğrur dayandı,dərdə, qəmə, qüssəyə dözüm göstərib sinə gərməyi bacardı, dərdin yaşatdığı dəhşətlərə, iztirablara boyun əymədi. Şairin əsərlərindən onu görürük ki, dərd onun qamətini əyib belini bükmədi, dizlərini yerə qoyduracaq qədər cürət sahibi ola bilmədi. Əksinə, bu dərd onu daha mətinləşdirib, daha da cəsarətləndirdi, gücləndirdi. Vətən uğrunda gücünə güc qataraq el-obaya qayıtmaq arzusunu daha da alovlandırırdı, yurd-yuva yanğısını ərşə qaldırırdı.Şairin misralara hopmuş böyük vətən sevgisi həsrətdən köz alıb, dərddən bəhrələnirdi. Şeirlərində vətən oğullarının ayağa qalxacağı o günə şairin inamı danılmaz idi. O həm də dərdlərimizin poeziyasını yarada bildi, insanlara sevdirdi onu ecazkar poetik dilinin qüdrəti ilə canlanırıb yaddaşlara köçürməyi bacardı. Təbii ki, bu keyfiyyətləri ilə özü də əbədiyyətə qovuşdu. Həsən Mirzəyev 2002-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeninə, 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür. Həsən Mirzə o qədər dərin və ecazkar yaradıcılığa malik idi ki, bir çox dil xadimləri onun əsərlərindən bəhrələnərək öz yaradıcılıqlarını daha da zənginləşdirdi. Görkəmli dilçi alim, ədəbiyyatşünas, publisist, şair Mahirə Hüseynova Həsən Mirzə yetirməsidir. Həsən Mirzəyev həm ailə mühitində, həm də elmi-ədəbi mühitdə professor Mahirə xanım üçün əsl ustadlıq və müəllimlik nümunəsi olmuşdur. Mahirə xanımın "Həsən Mirzəyev yaradıcılığında filologiya məsələləri" adlı monoqrafiyası həm də ustadı və müəllimi qarşısındakı mənəvi borcunun ibrətamiz hesabatıdır. Mahirə xanım bütün yaradıcılığı boyu Həsən Mirzəyevə hörmətini, izzətini, məhəbbətini dilə gətirmiş və onu öz əsərlərində göstərmişdir. "Həsən Mirzə yaşayır" şeirində Mahirə xanım onu sanki Azərbaycan ziyalılığına nümunə göstərir:

Bu ayları onsuz gördük deyilməz,
Üzbəüzdə Həsən Mirzə yaşayır.
O nə sirdir, nə hikmətdir, bilinməz,
Yüzə-yüzdə Həsən Mirzə yaşayır.
El oğluydu, el adamı, - dedilər,
Tək qoymayıb bir adamı, - dedilər.
Ata, qardaş, əmi, dayı, - dedilər,
Dağda, düzdə Həsən Mirzə yaşayır.
İnandım qəlbimə, gücünə sənin,
Tanrı yazısına ömürdü zəmin.
Qoyduğu hədəf var Həsən Mirzənin,
Yeri, ayaqlarım, nə dayanırsan?

Professor ,şair M.Hüseynovanın elmi yardıcılığı çoxşaxəlidir və zəngindir. Bildiyimiz kimi, Azərbaycan ədəbiyyatında dilçilik tədqiqatları əsasən iki sahədə:

ədəbi dil tarixi və üslubiyyat istiqamətlərində inkişaf etdirilmişdir. M.Hüseynova isə Dərələyəz mahalının zəngin aşıq ədəbiyyatı və xalq şeirlərindən bəhrələnərək onomastik vahidlərin, toponimlərin tədqiq olunmasına üstünlük verməklə ədəbiyyat yönümlü dilçilik tədqiqatlarının əhatə dairəsini genişləndirmişdir. Mahirə xanım özünün "Qərbi Azərbaycanın Dərələyəz mahalının aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlər" adlı monoqrafiyasını məhz bu istiqamətdə tədqiq etmişdir. Məsələyə bu cür elmi baxış, həm şifahi xalq ədəbiyyatının dərinliklərinin, ictimai-mədəni köklərinin nəzəri cəhətdən aydınlaşdırılmasına və həm də qrammatik strukturun real və təbii mənzərəsinin canlandırılmasına kömək etmişdir. Bu mənada M.Hüseynova öz yaradıcılığında qədim Azərbaycan torpaqlarından olan Dərələyəz mahalının folklorunu dilçilik yönündən öyrənilməsinə diqqət yetirmiş və apardığı tədqiqatlar həm də həmin regionun tarixi, etnoqrafiyası və ədəbiyyatına dair araşdırmalarında da özünü göstərir. M.Hüseynovanın 2017-ci ildə "XIX-XX əsrlər Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası isə milli folklor irsinə fəlsəfə doktorluğu dövründən başlanmış vətəndaş alim münasibətinin daha da böyüməsinə xidmət edir. M.Hüseynova müxtəlif illərdə Azərbaycan aşıq və el şairlərinin əsərlərinin linqvistikasının ayrı-ayrı sahələrini tədqiq etmiş və həmçinin qrammatika üzrə mükəmməl bir dilçilik araşdırmaları silsiləsi yaratmışdır.Bu silsilənin davamı kimi professorun Dərələyəz mahalının dil materialları əsasında qələmə aldığı "Aşıq və el şairlərinin fonopoetikası" (2015), "Aşıq və el şairlərinin leksikası"(2016),daha sonra "Aşıq və el şairlərinin üslubi frazeologiyası", Aşıq və el şairlərinin üslubi morfologiyası", "Aşıq və el şairlərinin üslubi sintaksisi" adlı kitabları işıq üzü görmüşdür.

**Ədəbiyyat siahısı**

1.İbrahim Bayramovm Qərbi Azərbaycan : Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti . Bakı 2012
2. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan 2007,
3. Mahirə Nağıqızı. Salam olsun Bakı-2020
4. Bayramov İ.M. Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı: Elm, 2005

**Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli**